# Zaqatala və Qəbələdə məscidlərin fəaliyyəti ilə tanışlıq

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Zaqatala rayonu Yuxarı Tala kənd məscidini və Qəbələ rayonu Nic qəsəbəsi Yalağaclı məhəllə məscidini ziyarət edib.**



Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, din xadimləri ilə görüşdə Ramin Məmmədov Azərbaycanda dövlət səviyyəsində dinə həssas münasibət göstərildiyini qeyd edib. Komitə sədri Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda dövlət-din münasibətləri modelinin qurulmasında müstəsna xidmətlərindən danışıb. O, Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması, tolerantlıq ənənələrinin möhkəmlənməsinə xüsusi diqqət yetirdiyini vurğulayıb. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dini-tarixi abidələrin qorunması ilə bağlı təşəbbüslərinin multikultural dəyərlərimizin təbliğində mühüm rol oynadığını bildirib.

Komitə sədri eyni zamanda diqqətə çatdırıb ki, din xadimləri fəaliyyətlərində Azərbaycanda tolerantlıq ənənələri, milli-mənəvi dəyərlərimizin təbliği, dövlətçilik və vətənpərvərlik prinsiplərini əsas götürməlidirlər.

Din xadimləri bu cür görüşlərin dini icmaların gələcək fəaliyyəti, icmalar arasındakı münasibətlərin tənzimlənməsi, bütövlükdə dövlət-din münasibətləri baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib, müxtəlif mövzularla bağlı rəy və təkliflərini diqqətə çatdırıblar.



Azərbaycan.- 2024.- 14 avqust (№ 172).- S.6.